Tibbi annotasiya forması-AMEA-5

# RESPUBLİKA ELMİ TƏDQİQATLARIN ƏLAQƏLƏNDİRİLMƏSİ ŞURASI

| | |
|---|---|
| **Təşkilatın adı** | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi<br>Azərbaycan Tibb Universiteti |
| **Sənədin növü** | Tibb üzrə Fəlsəfə Doktoru adını almaq üçün<br>Dissertasiya işinin<br>ANNOTASİYASI |
| **Tədqiqat işinin adı** | Müxtəlif yaş qruplarında Fallo tetradasının radikal korreksiyasından sonra xəstəxanadaxili ağırlaşmaların müqayisəli təhlili |
| **Tədqiqat mövzusunun aid olduğu elmi problemin adı** | Fallo tetradasının müxtəlif yaş qruplarında radikal əməliyyatından sonrakı ağırlaşmaların klinika,diaqnostika və müalicəsi |
| **Qeydiyyata Elmi Şuranın adı** | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi<br>Azərbaycan Tibb Unviersiteti |
| **Qeydiyat tarixi** | |
| **Etika Komissiyasının qərarı** | |
| **İxtisas şifri** | 3205.01 |
| **İxtisasın adı** | Kardiologiya |
| **İcraçının statusu** | Doktorant |
| **İcraçı** | Kazımova Vüsalə Asif qızı |
| **Təvəllüdü** | 21.03.1981 |
| **Cinsi** | Qadın |
| **İş yeri və vəzifəsi** | Ak.M.A.Topçubaşov adına Elmi CərahiyyəMərkəzi,Uşaq Ürək Cərrahiyyə mərkəzində uşaq kardioloqu |
| **Əlaqə** | Kazimova_vusale@gmail.ru |
| **Elmi rəhbər** | T.e.d., Professor Vəsadət Əziz oğlu Əzizov<br>ATU, I Daxili xəstəliklər kafedrasının müdiri<br>vasadat.azizov@gmail.com |
| **Elmi məsləhətçi** | - |
| **Sponsor** | - |
| **Tədqiqatın yerinə yetiriləcəyi yerli təşkilat** | Ak.M.A.Topçubaşov adına Elmi Cərahiyyə Mərkəzi,<br>Bakı,Yasamalrayonu,Şərifzadə küç.196 |
| **Tədqiqatın yerinə yetiriləcəyi xarici təşkilat** | - |
| **Şəhər və il** | Bakı,2022 |
| **Koordinasiya şurasına ilkin və sonrakı müraciət tarixi** | - |
| **AMEA qeydiyyat nömrəsi** | - |
| **Qeydiyyat tarixi** | - |
| **Maraqların toqquşması** | Yoxdur |

## TƏDQİQATIN MƏZMUNU

| | |
|---|---|
| **İşin adı** | Müxtəlif yaş qruplarında Fallo tetradasının radikal korreksiyasından sonra xəstəxanadaxili ağırlaşmaların müqayisəli təhlili. |
| **Problem** | Anadangəlmə ürək qüsurlarının cərrahi müalicəsi yüksək ixtisaslı anestezioloji,reanimatoloji və kardioloji dəstəklərin fonunda həyata keçirilir.Buna baxmayaraq, anadangəlmə ürək qüsurlarının, xüsusən də Fallo tetradasının radikal korreksiyasından sonra ağırlaşmalar tet-tez baş verir. Belə ki,əməliyyatdan sonrakı erkən dövrdə aparılan tədbirlər müalicənin effektivliyi üçün zəruridir. Ölkə və xarici ədəbiyyatlarda Fallotetradasının radikal korreksiyasının nəticələri haqda xeyli sayda elmi işlər yazılmışdır.Daha vacibi isə bu xəstələrdə qənaətbəxş olan xəstəxanadaxili mərhələnin kriteriyalarını təyin etməkdir ki,bu haqda kifayət qədər tədqiqatlaraparılmamışdır.Daha mükəmməl diaqnostika və müalicə üsullarının işlənib hazırlanmasına tələbat vardır. |
| **Məqsəd** | Xəstələrdə Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra xəstəxanadaxili ağırlaşmaların səbəb və spektrini öyrənmək,həmin xəstələrin müayinə və müalicə taktikasını optimallaşdırmaq. |
| **Obyekt və müdaxilələr(xəstə qrupları və müdaxilələr/proseduralar)** | Tədqiqatın retrospektiv bölümünə 245 xəstəlik tarixini əhatə edən reyestrin təhlili daxildir.<br>Tədqiqatın ikinci hissəsi-prospektiv bölümünə 2011-2022 ci illər ərzində Fallo tetradası diaqnozlu 245 xəstənin əməliyyatdan əvvəl və sonrakı ətraflı anamnezi toplanılaraq,klinik-laborator,instrumental müayinələr aparılacaq,müayinələrin nəticələri müqayisəli təhlil ediləcəkdir. |
| **Əsas qiymətləndirmə kriyeriyası və onun ölçmə metodu** | 1.Fizikal müayinə: ümumi vəziyyətin qiymətləndirilməsi, üvs və SpO2-nin ölçülməsi,auskultasiya,palpasiya(qaraciyərin ölçüsünün dəyərləndirilməsi)<br>2.EKQ (ritm və keçiriciliyin pozulması hallarının aşkarlanması)<br>3.Exokardioqrafiya(rəngli doppler): sağ mədəcik funksiyasını dəyərləndirmək,pulmonar yetərsizliyiqiymətləndirmək, varsa qalıq sistolik təzyiq qradiyenti və yamaqdan rezidual axımın hemodinamik əhəmiyyətli olu-olmamasını təyin etmək, həmçinin sol mədəcik atım fraksiyasını ölçmək, plevra və perikard boşluğunda maye toplanmasının müəyyən edilməsi<br>4.İrinli-septiki ağırlaşmaların fonunda infeksiyaların yoxlanması(aerob və anaerob)<br>5.Statistik işləmlər üçün parametrik və qeyri-parametrik statistikadan istifadə edilməsi. |
| **Əlavə qiymətləndirmə kriteriyaları və onların ölçmə metodları** | |
| **Açar sözlər** | Fallo tetradası,xroniki ürək çatışmazlığı,sağ mədəcik disfunksiyası,rezidualMAÇD,restenoz,pulmonar yetərsizlik,AV blok, QDÇ |
| **Obyektinə görə işin növü** | Klinik |
| **Məqsədinə görə işin növü** | Müalicə<br>Diaqnostika |
| **Vaxta görə işin növü** | Retrospektiv<br>Prospektiv |
| **Klinik tədqiqatın modeli** | Müşahidə |
| **Obyekt-xəstələr (material)** | Tədqiqatın retrospektiv bölümünə 245 xəstəlik tarixini əhatə edən reyestrin təhlili daxildir. |

| | |
|---|---|
| | Tədqiqatın ikinci hissəsi-prospektiv bölümünə 2011-2022 ci illər ərzindəFallo tetradası diaqnozlu 245 xəstənin müalicədən əvvəl və sonra ətraflı anamnezi toplanaraq, klinik-laborator,instrumental müayinələr aparılacaq,müayinələrin nəticələri müqayisəli təhlil ediləcəkdir. |
| **Daxil etmə kriteriyaları** | Laborator və instrumental müayinə metodları ilə QDÇ,ritm və keçiriciliyin pozulması, irinli –septiki ağırlaşmalar təsdiq edilmiş və Fallotetradalı xəstələr |
| **Çıxarma kriteriyaları** | Anamnezdə əlavə anadangəlmə ürək qüsuru olan xəstələr(FT diaqnozundan başqa), pulmonar atreziya, ağciyər arteriyası sistemi ciddi hipoplaziya olan xəstələr,sağ mədəcik çıxış yolunda tubulyar darlığı olan xəstələr, AV qapaqların hemodinamik əhəmiyyətli zədələnmələri olan, miokardit, EF<50% olan xəstələr,bəd xassəli şiş, autoimmun xəstəliyi olan,ağırsinir sistemi xəstəliyi olan xəstələr |
| **Randomizasiya üsulu** | Xəstələr yaşa görə qruplara ayrılmışlar. |
| **Müdaxilənin açıqlaması** | |
| **Statistik və riyazi işləmlər** | Parametrik və qeyri-parametrik |
| **Aktuallığı** | Fallo tetradası – anadan gəlməgöy ürək qüsurları arasında ən çox rast gəlinənidir. Bunun nəticəsi olaraq bütün dünyada olduğu kimi, bizim ölkədə də radikal korreksiyanın böyük təcrübəsi əldə olunub. Hətta əməliyyatlar mükəmməl cərrahi texnika ilə aparılır. Lakin yüksək ixtisaslı anestezioloji, reanimotoloji və kardioloji yardımların fonunda belə ağırlaşmaların tez-tez baş verməsi cərrah və kardioloqların daimi diqqətini özünə cəlb edir. Xəstəxanadaxili əməliyyatdan sonrakı mərhələ xəstələr üçün ən vacib mərhələdir. Çünki, bu mərhələ ağırlaşmaların ən çox baş vermə ehtimalı ilə müşayiət olunur. Baxmayaraq ki, əksər elmi işlərdə Fallotetradasının radikal korreksiyasının nəticələri göstərilib, lakin daha vacibi bu xəstələrdə qənaətbəxş olanxəstəxanadaxili mərhələnin kriteriyalarını təyin etməkdir. Belə ki, mədəciklərarası çəpər səviyyəsində yamaqdan keçiş, sağ mədəcik çıxış yolunda və ağciyər arteriyası qapağında olan qalıq sistolikqradiyent,ürəyin sağ hissəsinin qapaqlarının yetərsizliyi, miokard funksiyasının pozulması kimi faktorlar xroniki ürək çatışmazlığının müalicə və diaqnostikası üçün prinsipial əhəmiyyət kəsb edən faktorlardır. Yuxarıda qeyd olunan faktorların kompleks şəklidə ürək çatışmazlığının dərəcəsinə təsiri, indiyə qədər əldə olunan ədəbiyyatlarda rast gəlinməmişdir. Fallotetradasınınmüxtəlif yaş qruplarında radikal korreksiyadan sonra xəstələrin vəziyyətlərinin ağırlaşmasında az əhəmiyyətli olmayan faktorlardan biri də plevra və perikard boşluğunda maye toplanmasıdır ki, bunun da səbəbi ürək çatışmazlığıdır. Bir sıra hallarda isə, məhz mayenin toplanması ürək və ağciyərlərin funksiyasına mənfi təsir edir ki, bu da xəstələrin klinikada uzun müddətli yatışına səbəb olur.<br><br>Təcrübə göstərir ki, bu cür problemlərin tam və vaxtında qiymətləndirilməsi rəngli doplergörüntülü, transtorokal, iki ölçülüexokardioqrafik müayinə ilə həyata keçirilir. Daha bir problem əməliyyatdan sonrakı xəstəxanadaxili mərhələdə qan dövranı çatışmazlığı olan xəstələrin irinli-septiki ağırlaşmasıdır. Bütün bunların yaranmasının əsas səbəbləri nəticə etibarı ilə əməliyyat zamanı zəifləmiş infeksiya əleyhinə baryer və stresdir.<br><br>Ritmin və ürəkdaxilikeçiriciliyin pozulması probleminə xaricdə olduğu kimi bizim ölkədə də çox diqqət yetirilir. Lakin bu görülən işlərin əksəriyyəti gələcəkdəki əməliyyatdan sonrakı mərhələyə həsr olunub. Bu elmi işlərdə xəstəxanadaxili mərhələdə baş verən hadisələr haqqında az informasiya verilərək, mədəcik |

| | |
|---|---|
| | aritmiyalarının sağ mədəcik miokardında yaranan çapıq toxumasından asılılığı göstərilib. Xəstəxanadaxili mərhələdə dəqiq müayinənin EXO dopler-KQ ilə aparılması əməliyyatdan sonrakı ağırlaşmaların xarakterik səbəblərini dəqiqləşdirməyə və bunun əsasında düzgün müalicə taktikasını seçməyə imkan verir. Bu, bir sıra hallarda təkrar əməliyyatlardan sovuşmağa gətirib çıxarır. |
| **Vəzifələr** | 1.Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra xəstəxanadaxili mərhələdə daha çox rast gələnağırlaşmaları təyin etmək.<br>2.Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra xəstəxanadaxili mərhələdə rast gələnağırlaşmaların yaranmasının səbəb və risk faktorlarını aşkar etmək.<br>3. Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra yaranan ağırlaşmalaringedişatının xüsusiyyətlərini aşkar etmək.<br>4. Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra xəstəxanadaxili mərhələdə yaranan ağırlaşmaların müalicəsinin optimallaşdırılması. |
| **Orijinallıq(yeniliyi)** | Fallo tetradasının radikal korreksiyasının nəticələrini əhatə edən böyük həcmdə-245 xəstədən ibarət tədqiqat işi aparılacaq.Beləki,Fallo tetradasının radikal koreksiyası icra olunmuş245 xəstənin ağırlaşmalarının müxtəlif yaş qrupları üzrə analizi qeydə alınacaq.İş 2011-2022 ci illəri əhatə edəcək. Məhz bu xəstələrin analizi əsasında, erkən əməliyyatdan sonrakı mərhələnin gedişatının alqoritm və mexanizmi təşkil olunacaq.Nəticədə, ağırlaşmaların tezliyi vəspektri,risk faktorları həmçinin, optimal müayinə və müalicə taktikaları müəyyən olunacaq. |
| **Gözlənilən nəticələr və onların elmi-praktik əhəmiyyəti** | Çoxsaylı müşahidələrin əsasında, Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra daha çox rast gəlinən ağırlaşmaların spesifikliyinin xarakterizə olunması,böyük təcrübəsi olmayan kardiocərrahi klinikalarda ağırlaşmalarla olan xəstələrin aparılması üçün əhəmiyyətli ola bilər.Beləki, təqdim olunan iş reanimasiya şöbəsində xəstənin ağciyərlərinin süni ventilyasiya aparatına qoşulma müddətinin, inotrop dəstəyə olan tələbatın, həmçinin stasionarda yatış müddətinin azaldılması kimi üstünlükləri əldə etmək üçün faydalı ola bilər. Nəticədən həmçinin, sahə kardioloqları dayararlana bilər .Beləki, əməliyyat olmuş xəstələrin korreksiyasıın effektliyini qiymətləndirmək, hətta təkrari əməliyyata namizəd ola biləcək pasiyentləri konkretləşdirmək üçün də böyük əhəmiyyət kəsb edə bilər. |
| **Maddi və texniki imkanlar** | Mövcuddur |
| **Tədqiqatın yerinə yetiriləcəyi yer** | Azərbaycan Tibb Universiteti Tədris Terapevtik klinika və Ak.M.A Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi |
| **İşə başlama vaxtı** | 2022 |
| **İşin bitirmə vaxtı** | 2026 |
| **İşin müddəti** | 4il |
| **İşin mərhələləri** | I. Tədqiqat metodlarının aparılması və interpretasiyası<br>II. Arxiv materialları əsasında retroqrad təhlilin aparılması |

| | |
|---|---|
| | III. Ədəbiyyat icmalının hazırlanması<br>IV. Prospektiv tədqiqatların aparılması<br>V. Retrospektiv müayinələrin statistik işlənməsi və məqalələrin çap edilməsi<br>VI. Dissertasiya işinin yazılması<br>VII. İngilis dili fənnindən minimum imtahanının verilməsi<br>VIII. Kardiologiya ixtisası üzrə minimum imtahanın verilməsi<br>IX. Kafedrada ilkin müzakirələrin aparılması.Kafedralararası dissertasiya işinin müzakirəsi və müdafiə üçün dissertasiya şurasına təqdim olunması |
| **Ədəbiyyat** | 1.Omelchenko AY, Et al.Khirurgiia (MOSK)2017 Rightventriculyardisfunctionaftertetralogy of Fallotrepair// PMİD : 28638021 Review/Russian<br>2. Tsubota H, et al. Gen ThoracCardiovascSurg (2012)// Longtermoutcome of correction of tetralogy of Fallotin 56 patients<br>3. Bockeria LA, et al.AsiancardiovascThoracAnn. 2015 PMİD:24855279// Repairofheartdefectsassociatedwith single pulmonary artery.<br>4.Riesenkampff E, et al. J ThoracCardiovascSurg. 2014// Surgeryimpactsrightatrialfunctionintetralogy of Fallot.<br>5. В.П. Подзолков, В.Н. Шведунова, Е.В. Злочевская, Д.Ш. Самуилова, Н.А. Путято’’Вариантытечениягоспитальногопериода у больныхпослерадикальнойкоррекциитетрадыФалло : клиника,диагностика и результатылеченияосложнений.” //Анналы хирургии.-2016 N1 стр.26-34.<br>6. Злочевская Е.В., Донцова В.И. // Недостаточность кровообращения после радикальной коррекции тетрадыФаллона госпитальном этапе у пациентов старшего возраста.”в Бюллетене НЦ ССХ им. А.Н.Бакулева РАМН.-том4, N 6, июнь 2018. Москва-стр. 241.<br>7. Самуилова Д.Ш., Шведунова В.Н., Самсонова Н.Н, Злочевская Е.В., Путято Н.А., Горбенко И.Ю. “Информативность гематологических показателей после радикальной коррекции тетрадыФалло.” // в Бюллетене НЦ ССХ им. А.Н.БакулеваРАМН.-том4, N 6, июнь 2018. Москва-стр. 163<br>Шведунова В.Н., Самуилова Д.Ш., ЗлочевскаяЕ.В.,Путято Н.А., М итина И.Н., Нежлукто А.Я. “Особенности течения госпитального периода после радикальной коррекции тетрадыФалло: тактика и результаты лечения осложнений.”// в Бюллетене НЦ ССХ им. А.Н.БакулеваРАМН.-том4, N 6, июнь 2018. Москва-стр. 203.<br>8.Surgical Treatment of tetralogy of Fallot in symptomatic neonates aug young infants surg/<br>Jeon B. et al, J ThoracCardiovasc 2020.<br>9. Complete surgical repair of tetralogy of Fallot in adults.\\<br>Chavidel AA, et al J Card Surg. 2016<br>10. Pregnacy and Delivery in a patients after tetralogy of Fallot Surgery Being Undergone<br>Cerovac A, et al Med Arch 2018.<br><br>. |
| **Tədqiqatın hazırki vəziyyəti** | Davam edir |
| **İşlə əlaqədar çap olunan** | İşlə əlaqədar çap olunan məqalələr yazılır |

| | |
|---|---|
| **məqalələr** | |

| | |
|---|---|
| *Abstrakt(Azərbaycanca)* | |
| **İşin adı:** | Müxtəlif yaş qruplarında Fallo tetradasının radikal korreksiyasından sonra xəstəxanadaxili ağırlaşmaların müqayisəli təhlili |
| **Problem:** | Anadangəlmə ürək qüsurlarının cərrahi müalicəsi yüksək ixtisaslı anestezioloji,reanimatoloji və kardioloji dəstəklərin fonunda həyata keçirilir.Buna baxmayaraq, anadangəlmə ürək qüsurlarının, xüsusən də Fallo tetradasının radikal korreksiyasından sonra ağırlaşmalartet-tez baş verir. Belə ki,əməliyyatdan sonrakı erkən dövrdə aparılan tədbirlər müalicənin effektivliyi üçün zəruridir. Ölkə və xarici ədəbiyyatlarda Fallo tetradasının radikal korreksiyasının nəticələri haqda xeyli sayda elmi işlər yazılmışdır.Daha vacibi isə bu xəstələrdə qənaətbəxş olan xəstəxanadaxili mərhələnin kriteriyalarını təyin etməkdir ki,bu haqda kifayət qədər tədqiqatlaraparılmamışdır.Daha mükəmməl diaqnostika və müalicə üsullarının işlənib hazırlanmasına tələbat vardır. |
| **Məqsəd:** | Xəstələrdə Fallo tetradasının müxtəlif yaş qruplarında radikal korreksiyasından sonra xəstəxanadaxili ağırlaşmaların səbəb və spektrini öyrənmək,həmin xəstələrin müayinə və müalicə taktikasını optimallaşdırmaq. |
| **Material və metodlar:** | Tədqiqatın retrospektiv bölümünə 245 xəstəlik tarixini əhatə edən reyestrin təhlili daxildir.<br>Tədqiqatın ikinci hissəsi-prospektiv bölümünə 2011-2022 ci illər ərzində Fallo tetradası diaqnozlu 245 xəstənin əməliyyatdan əvvəl və sonrakı ətraflı anamnezi toplanılaraq,klinik-laborator,instrumental müayinələr aparılacaq,müayinələrin nəticələri müqayisəli təhlil ediləcəkdir. |
| **Əsas qiymətləndirmə kriteriyaları:** | 1.Fizikal müayinə: ümumi vəziyyətin qiymətləndirilməsi, üvs və SpO2-nin ölçülməsi,auskultasiya,palpasiya(qaraciyərin ölçüsünün dəyərləndirilməsi)<br>2.EKQ (ritm və keçiriciliyin pozulması hallarının aşkarlanması)<br>3.Exokardioqrafiya(rəngli doppler): sağ mədəcik funksiyasını dəyərləndirmək,pulmonar yetərsizliyiqiymətləndirmək, varsa qalıq sistolik təzyiq qradiyenti və yamaqdan rezidual axımın hemodinamik əhəmiyyətli olu-olmamasını təyin etmək, həmçinin sol mədəcik atım fraksiyasını ölçmək, plevra və perikard boşluğunda maye toplanmasının müəyyən edilməsi<br>4.İrinli-septiki ağırlaşmaların fonunda infeksiyaların yoxlanması(aerob və anaerob)<br>5.Statistik işləmlər üçün parametrik və qeyri-parametrik statistikadan istifadə edilməsi. |
| **Əlavə qiymətləndirmə kriteriyaları:** | - |
| **Açar sözlər:** | Fallo tetradası,xroniki ürək çatışmazlığı,sağ mədəcik disfunksiyası,rezidualMAÇD,restenoz,pulmonaryetərsizlik,AV blok, QDÇ |

| | |
|---|---|
| **İşin növü və dizayn:** | Klinik, retrospektiv-prospektiv |
| | |
| | |
| | |
| *Abstarkt(in english)* | |
| **Name of study:** | Comparative analysis of complications after radical correction of the Tetralogy of Fallot in different age groups. |

| | |
|---|---|
| **Background:** | The surgical treatment of congenital heart defects in ourcountry and abroad is carried out against the background of highly qualified anesthesiological, resuscitation and cardiologicalcare. Nevertheless, after radical correction of congenital heart defects, especially the Tetralogy of Fallot, complications oftenarise. Therefore, the measures taken in the early period after the operation are necessary for the treatment to be effective. A large number of scientific works have been written in domestic and foreign literature about the results on the radical correction of the Tetralogy of Fallot. It is more important to determinethe criteria of a satisfactory hospital status inthesepatients, forwhom not enough studies have been done. There is a need to develop better diagnostic and treatment methods. |
| **Objective:** | To study the cause and spectrum of hospital complications after radical correction of Tetralogy of Fallot in different age groups of patients; and to optimize the examination and treatmenttactics of thesepatients. |
| **Material and metods(patient groups and interventions):** | Theretrospective part of the study included the analysis of a registerwith 245 medical histories.<br>In the second part-prospective part of the research, in the period 2011-2022, a detailed anamnesis of 245 patients with diagnosed Tetralogy of Fallot will be collected before and after the operation, clinical laboratory and instrumental examinations will be carriedout and the results of the examinations will be comparatively analyzed. |
| **Primary outcome:** | 1. Physical examination: assessment of the general condition, measurement of uvs and SpO2, auscultation, palpation (assessment of thesize of the liver)<br>2. ECG (detection of rhythm and conduction disturbances)<br>3. Echocardiography (colordoppler): to evaluate the right ventricular function, to evaluate pulmonary in sufficiency, todetermine the hemodynamic significance of residual systolic pressure gradient and residual flow from the patch, as well as to measure left ventricular ejection fraction, to determine fluid accumulation in the pleural and pericardial space.<br>4. Examination of infections against the background of purulent-septic complications (aerobic and anaerobic)<br>5. Using parametric and non-parametric statistics for statistical work. |
| **Secondary outcome:** | |
| **Key words:** | Tetralogy of Fallot, Chronic Heart Failure, Right Ventricular Dysfunction, Residual VSD, Restenosis, Pulmonary Insufficiency, AV Block |
| **Study type and design:** | Klinic, retrospective-prospective |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |